# Q Ə R A R

**<u>İş № 1(103) – 558/2010</u>**

29 iyul 2010-cu il Bakı şəhəri

Bakı Apellyasiya Məhkəməsinin cinayət kollegiyası:
Hakimlər Hüseynov Mirpaşa Süleyman oğlunun sədrliyi və məruzəsi ilə,
Talıbov Hüseyn Heydər oğlu və Səfərov Rəsul Nadir oğlundan ibarət tərkibdə,
Məhkəmə iclas katibi Sadıqov Nurəddin Arif oğlunun katibliyi ilə,
Dövlət ittihamçısı Azərbaycan Respublikası Baş Prokurorluğu Dövlət ittihamının müdafiəsi üzrə idarənin Apellyasiya və kassasiya instansiyası məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbənin prokuroru Mustafayev Məhərrəm İsa oğlunun,
Məhkum Əliəkbərov Mədan Bəxtiyar oğlu və müdafiəçisi Əliyev Həbib Əli oğlunun (Bakı şəhəri 17 saylı hüquq məsləhətxanasının vəkili) iştirakı ilə,

**Əliəkbərov Mədan Bəxtiyar oğlunun** Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 128-ci maddəsi ilə məhkum edilməsinə dair Ağır Cinayətlərə dair İşlər üzrə Azərbaycan Respublikası Məhkəməsinin 14 may 2010-cu il tarixli hökmündən dövlət ittihamçısı Fariz Rzayev tərəfindən verilmiş apellyasiya protestinə məhkəmənin binasında açıq məhkəmə iclasında baxaraq,

müəyyən etdi:

Ağır Cinayətlərə dair İşlər üzrə Azərbaycan Respublikası Məhkəməsinin 14 may 2010-cu il tarixli hökmü ilə (sədrlik edən hakim Ə.H.Quliyev, hakimlər İ.X.Həsənzadə və İ.A.Mahmudov)

03 dekabr 1983-cü ildə Bakı şəhərində anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, ailəli, himayəsində iki az yaşlı uşağı olan, orta təhsilli, fərdi əməklə məşğul olan, məhkum olunmamış, Bakı şəhəri, Suraxanı rayonu, Əmircan qəsəbəsi, Oktyabr küçəsi ev 10-da pasport qeydiyyatında olan və həmin ünvanda yaşamış, barəsində həbs qətimkan tədbiri seçilmiş, hazırda Azərbaycan Respublikası Ədliyyə Nazirliyi PX-in 3 saylı İstintaq Təcridxanasında saxlanılan
**Əliəkbərov Mədan Bəxtiyar oğlu**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 128-ci maddəsi ilə təqsirli bilinib 01 (bir) il müddətinə aylıq qazancının 15 (on beş) faizi dövlət nəfinə tutulmaqla islah işi cəzasına məhkum edilmiş, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 69.3-cü maddəsinə əsasən təyin olunmuş cəzası üç günə bir gün hesabı ilə azadlıqdan məhrum etmə cəzası ilə əvəz olunmaqla üzərində qəti cəza 04 (dörd) ay müddətinə azadlıqdan məhrum etmə cəzası saxlanılmış, həmin cəzanı çəkdiyi üçün təyin olunmuş cəzanı çəkməkdən azad olunmuş, barəsində seçilmiş həbs qətimkan tədbiri ləğv olunaraq dərhal məhkəmə zalından həbsdən azad edilmişdir.

Birinci instansiya məhkəməsi Əliəkbərov Mədan Bəxtiyar oğlu haqqında ittiham hökmü çıxararkən belə nəticəyə gəlmişdir ki, o, 24 avqust 2009-cu il tarixdə, saat 19:00 radələrində Bakı şəhəri, Əzizbəyov rayonu, Mərdəkan qəsəbəsi, Tağıyev küçəsində Məmmədov Ramin Tapdıq oğlu ilə şəxsi münasibətlərinin pozulması zəminində baş vermiş mübahisə zamanı, özündə olan bıçaqla Ramin Məmmədovun kürək nahiyyəsindən qəsdən bir zərbə endirərək ona sağlamlığın qısa müddətə pozulmasına səbəb olan yüngül zərər vurmuşdur.

Hökmlə razılaşmayan dövlət ittihamçısı Fariz Rzayev apellyasiya protesti verərək, Ağır Cinayətlərə dair İşlər üzrə Azərbaycan Respublikası Məhkəməsinin 14 may 2010-cu il tarixli hökmünün ləğv edilərək Əliəkbərov Mədan Bəxtiyar oğlunun Azərbaycan Respublikasının CM-nin 126.2.4-cü maddəsi ilə təqsirli bilinib ona həmin maddənin sanksiyası daxilində cəza təyin edilməsini, həmçinin Məmmədov Ramin Tapdıq oğlu ilə şəxsi münasibətlərinin pozulması zəminində baş vermiş mübahisə zamanı onun qəsdən vuraraq ənsə nahiyyəsinin əzilmiş yarası və sol saidin sıyrığı kimi xəsarətlər yetirməklə sağlamlığa yüngül zərərvurması əməlinə görə də təqsirli bilinməsini xahiş etmişdir.

Apellyasiya protestinin dəlillərini onunla əsaslandarmışdır ki, məhkəmə iş üzrə gəldiyi nəticəni yalnız bir-birinə zidd olan məhkəmə tibb ekspertizasının rəyləri ilə əsaslandıraraq, gəldiyi nəticənin düzgünlüyünə əhəmiyyətli təsir göstərən sübutların bir hissəsini heç bir əsas olmadan sübut kimi qəbul etmədən, bir sübutun qəbul edilməsinin, digər sübutun rədd edilməsinin səbəbini göstərmədən, yəni Azərbaycan Respublikası CPM-nin 144-145 maddələrinin tələblərini pozmaqla sübutlara düzgün hüquqi qiymət vermədən qanunsuz və əsassız olaraq M.B.Əliəkbərovun əməlini AR CM-nin 126.2.4-cü maddəsindən AR CM-nin 128-ci maddəsinə tövsif etmiş, həmçinin Mədan Əliəkbərovun Ramin Məmmədovu vuraraq ona ənsə nahiyyəsinin əzilmiş yarası, sol saidin sıyrığı xəsarətləri yetirməsinə görə qanunsuz olaraq təqsirli bilməmiş istintaq orqanı M.R.Əliəkbərovun əməlini AR CM-nin126.2.4-cü maddəsi ilə tövsif edərkən məhkəmə-tibbi ekspertizasının 08 setyabr 2009-cu il tarixli, 128-e/634 saylı rəyinə əsaslanmış, həmin rəyə əsasən yetirilən xəsarət həyat üçün təhlükəli olduğuna görə sağlamlığa ağır dərəcəli zərərvurmaya aid olmuşdur. Zərərçəkmiş şəxs Məmmədov Ramin Tapdıq oğlu aldığı xəsarətlə əlaqədar 24 avqust 2009-cu il tarixdən 09 sentyabr 2009-cu il tarixədək xəstəxanada stasionar qaydada müalicə olmuş, cinayət işi üzrə məhkəmənin 15 yanvar 2010-cu il tarixli qərarı ilə xəsarətin dərəcəsini müəyyən etmək məqsədilə təkrar komisyon məhkəmə-tibbi ekspertizasının təyin edilmiş, həmin rəydən görünür ki, xəsarətlər sağlamlığa yüngül zərər vurmaya aiddir. Məhkəmə yalnız məhkəmə-tibbi ekspertizasının 25 yanvar 2010-cu il tarixli komisyon rəyinə əsaslanaraq R.T.Məmmədovun sağlamlığına yünül zərər vurmaya aid xəsarət yetirilməsi nəticəsinə gəlmişdir. Cinayət işi üzrə R.T.Məmmədovun hadisə nəticəsində aldığı xəsarətin müəyyən ediləməsinə dair iş üzrə bir-birinə ziddiyyət təşkil edən iki rəy olmasına görə iş üzrə təkrar komisyon məhkəmə tibb ekspertiza keçirilməsi barədə vəsatət verilsə də, məhkəmə həmin vəsatəti əsassız olaraq təmin etməmiş, beləliklə, məhkəmənin gəldiyi nəticələrin işin faktiki hallarına uyğun bilməmiş və cinayət qanunu normasını birinci instansiya məhkəməsi düzgün tətbiq etməmişdir.

Məhkəmə kollegiyasının iclasında məhkum Əliəkbərov Mədan Bəxtiyar oğlu ona Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 128-ci maddəsi ilə

elan olunmuş ittiham üzrə özünü təqsirli bilərək, əməlindən peşiman olduğunu və apellyasiya protestinin təmin olunmamasını xahiş etdi.

Məhkəmə kollegiyası apellyasiya protesti əsasında cinayət işinin materiallarını tam həcmdə öyrənib, protestin dəlillərini araşdırıb, dövlət ittihamçısının apellyasiya protestinin təmin edilərək, hökmün ləğv edilməsi, məhkumun və müdafiəçinin hökmün dəyişdirilmədən, apellyasiya protestinin isə təmin edilmədən saxlanılması barədə çıxışlarını dinləyərək hesab edir ki, aşağıdakılara əsasən hökm dəyişdirilmədən, apellyasiya protesti təmin edilmədən saxlanılmalıdır.

Belə ki, cinayət işinin materiallarından görünür ki, məhkumun AR CM-nin 128-ci maddəsi ilə ittiham olunduğu əməli özünün etiraf etməsi ilə yanaşı, zərərçəkmiş şəxsin, şahidlər Ruhullayeva Ülviyyə Həsənağa qızının, Əliyev Nəcəf Əli oğlunun, Mərdiyev Əziz Əskər oğlunun, Allahverdiyev Ceyhun Tofiq oğlunun ifadələri, iş üzrə keçirilmiş məhkəmə-kriminalistik və təkrar komisyon məhkəmə-tibbi ekspertizalarının rəyləri və cinayət işinin digər materialları ilə ona sübuta yetirilmişdir.

Yuxarıda sadalanan və cinayət işində olan sübutlara əsasən məhkəmə kollegiyası qeyd edir ki, Əliəkbərov Mədan Bəxtiyar oğlunun göstərilən cinayəti törətməsinin sübuta yetirilməsi və cinayət əməlinin hüquqi tövsifi barədə birinci instansiya məhkəməsinin gəldiyi nəticə işin faktiki hallarına uyğun və əsaslıdır, məhkum Əliəkbərov Mədan Bəxtiyar oğlunun cinayət əməli düzgün olaraq Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 128-ci maddəsi ilə tövsif edilmişdir.

Məhkəmə kollegiyası hesab edir ki, ibtidai istintaq orqanı cinayət işini hərtərəfli tətqiq etmədən Mədan Əliəkbərovun Ramin Məmmədova xuliqanlıq niyyəti ilə insan həyatı üçün təhlükəli olan qəsdən sağlamlığa ağır zərər vurması nəticəsinə gələrək ona Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 126.2.4-cü maddəsi ilə ittiham versə də, birinci instansiya məhkəməsi cinayət işi materiallarını araşdırarkən M.B.Ələkbərovun Ramin Məmmədov və Elman Mustafayevin onun həyat yoldaşının ünvanına nalayiq sözlər işlətdiklərinə görə aralarında yaranmış münaqişə zamanı R.T.Məmmədova xəsarət yetirməsi müəyyən edilmişdir ki, bu halda məhkəmə Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "Xuliqanlıq işləri üzrə məhkəmə təcrübəsi haqqında" 23 mart 2004-cü il tarixli, 1 saylı qərarının tövsiyələrini nəzərə alaraq Mədan Əliəkbərovun ictimai qaydanı kobud surətdə pozmadan və cəmiyyətə qarşı açıqcasına hörmətsizlik göstərmədən məhz şəxsi münasibətlərin pozulması nəticəsində Ramin Məmmədovu vurmasını xuliqanlıq kimi qiymətləndirməmiş, eyni zamanda tibbi ekspertin rəyi, həmçinin ekspertlərin fikirləri, xəstəni ilk dəfə müayinə və müalicə edən həkimin fikri ilə ziddiyyət təşkil etdiyindən məhkəmənin 15 yanvar 2010-cu il tarixli qərarı ilə Məmmədov Ramin Tapdıq oğluna yetirilən xəsarətin dərəcəsini müəyyən etmək məqsədilə təkrar komisyon məhkəmə-tibbi ekspertizası təyin edilmiş, keçirilmiş təkrar komisyon məhkəmə-tibbi ekspertizasının rəyi ilə Mədan Əliəkbərovun Ramin Məmmədova ağır xəsarət deyil, yüngül xəsarət yetirməsi müəyyən edilmişdir.

Məhkəmə kollegiyası göstərilənləri nəzərə alaraq hesab edir ki, birinci instansiya məhkəməsi tərəfindən işin faktiki halları hərtərəfli və tam araşdırılmış və əsaslı olaraq Əliəkbərov Mədan Bəxtiyar oğlunun əməli xuliqanlıq kimi

qiymətləndirilməmiş və yetirilən xəsarətin dərəcəsinə uyğun olaraq onun cinayət əməli Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 128-ci maddəsinə tövsif olunmuşdur.

Məhkəmə kollegiyası hesab edir ki, birinci instansiya məhkəməsi məhkum Əliəkbərov Mədan Bəxtiyar oğluna cəza təyin edərkən onun təqsirini qismən etiraf edərək, əməlindən səmimi peşimançılıq çəkməsini, ilk məhkumluğunu, ailəli və himayəsində iki az yaşlı uşağının olmasını, həmçinin zərər çəkmişlə barışmasını cəzanı yüngülləşdirən hallar kimi qiymətləndirərək, cəzasını ağırlaşdıran halların olmamasını, həmçinin təyin olunmuş cəzanın şəxsin islah olunmasına və onun ailəsinin həyat şəraitinə təsirini nəzərə alaraq haqlı olaraq ona təqsirli bilindiyi Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 128-ci maddəsinin sanksiyasında nəzərdə tutulan müəyyən müddətə islah işi cəzası təyin etmişdir.

Apellyasiya protestinin dəlilləri ilə əlaqədar məhkəmə kollegiyası qeyd edir ki, birinci instansiya məhkəməsinin cinayət işi materiallarındakı ziddiyyətləri nəzərə alaraq obyektiv araşdırma məqsədilə əlavə şahidlərin dindirilməsini və təkrar komisyon məhkəmə-tibbi ekspertizası keçirilməsini təmin etmiş, şahidlərin ifadələrini, həmçinin keçirilmiş təkrar komisyon məhkəmə-tibbi ekspertizasının rəyini nəzər alaraq Ramin Məmmədova ağır xəsarət deyil, yüngül xəsarət yetirilməsini, müqayəisəli şəkildə tədqiq edən birinci instansiya məhəkəməsinin gəldiyi nəticəni və iş üzrə verilmiş rəyləri müzakirə edərkən haqlı olaraq komisyon qaydada alınmış rəyin daha mötəbər sübut növü kimi qəbul edilib qiymətləndirilməsi qənətinə gəlməsini və iş üzrə yenidən təkrar komisyon məhkəmə tibb ekspertiza keçirilməsi üçün heç bir əsas və lüzum olmadığından bu barədə vəsatəti təmin etməmiş, bununla da məhkəmənin gəldiyi nəticələrin işin faktiki hallarına uyğun olmaması və cinayət qanunu normasının düzgün tətbiq edilməməsi barədə apellyasiya protestinin dəlilləri əsassız olmaqla təmin olunmamalıdır.

Yuxarıda göstərilənlərə əsasən məhkəmə kollegiyası belə nəticəyə gəlir ki, birinci instansiya məhkəməsi işin faktiki hallarını tam, hərtərəfli və obyektiv araşdıraraq onlara düzgün hüquqi qiymət vermiş, çıxarılmış hökm cinayət işinin materiallarına uyğundur.

Məhkəmə kollegiyası hesab edir ki, apellyasiya protestində göstərilən dəlillər cinayət işi materialları ilə təkzib edildiyindən təmin edilməməli, birinci instansiya məhkəməsinin hökmü isə dəyişdirilmədən saxlanılmalıdır.

Şərh olunanlara əsasən və Azərbaycan Respublikası CPM-in 398.1.1, 407.2 və 410-cu maddələrini rəhbər tutaraq, məhkəmə kollegiyası

qərara aldı:

Ağır Cinayətlərə dair İşlər üzrə Azərbaycan Respublikası Məhkəməsinin Əliəkbərov Mədan Bəxtiyar oğlu haqqındakı 14 may 2010-cu il tarixli hökmü dəyişdirilmədən, apellyasiya protesti təmin edilmədən saxlanılsın.

Qərar elan olunduğu andan dərhal sonra qanuni qüvvəyə minir.

Qərardan Azərbaycan Respublikası Ali Məhkəməsinin cinayət işləri üzrə məhkəmə kollegiyasına kassasiya şikayəti və kassasiya protesti verilə bilər.